# Qardaş çətin anda qardaşını tək qoymadı



## Dünyada bir-biri ilə bu qədər səmimi və yaxın münasibətdə olan iki dövlət tapmaq olmaz

Martın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Ankarada keçirilən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasında iştirak etdi. Səfər çərçivəsində Azərbaycan Prezidenti ilə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında keçirilən səmimi görüş, bir-birinə olan qardaş münasibəti hər iki ölkə ictimaiyyətində geniş müzakirə mövzusu oldu və qürurla qarşılandı.

Siyasi ekspertlər deyirlər ki, Ankarada baş verən terror hadisələri də Prezident İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan görüşünü əngəlləyə bilmədi. Dövlət başçımızın həmrəylik addımı yüksək qiymətləndirildi.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini **Yevda Abramov** bununla bağlı dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə məhz bu məqamda səfər etməsi diplomatiya tarixində az rastlanan hadisədir. Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfərinin baş tutmamasına görə təəssüflənən deputata görə, bu səfərlərinə mane olmaq istəyən qüvvələr qəsdən terrora əl atırlar: "Hər dəfə cənab Ərdoğanın səfər xəbəri çıxan kimi elə bil ki, "gözəgörünməz" qüvvələr bunu pozmaqdan ötrü Ankarada terror hadisəsi törətdilər. Bu terror hadisəsi bizim də ürəyimizi ağrıdır. Biz də türk xalqının acılarını bölüşürük".

Yevda Abramovun fikrincə, Türkiyə Prezidentinin Azərbaycana gələ bilməməsi və Prezident İlham Əliyevin Ankaraya səfər etməsi diplomatiya tarixinə qızıl hərflərlə yazıldı: "Siyasi proseslərlə məşğul oluruq, amma mən belə jest görməmişdim. Bu, bir daha sübut edir ki, biz, həqiqətən də, bir millət, iki dövlətik. Rəcəb Tayyib Ərdoğan gələ bilmədi, əvəzində qardaşı ora getdi. Qardaş çətin günündə qardaşının yanında oldu. Bununla da biz şad günümüzdə də, çətin günümüzdə də bir yerdə olduğumuzu sübut etdik". Deputat onu da əlavə etdi ki, Azərbaycan və Türkiyə prezidentlərinin keçirdiyi görüşlərdə təkcə iki ölkə arasında deyil, eyni zamanda, bölgədə və dünyada baş verən proseslər müzakirə olunub. Siyasi kataklizmlərin baş verdiyi indiki zamanda iki qardaş ölkənin bir yerdə olması və baş verən proseslərə eyni reaksiya verməsi zəruridir: "İnanıram ki, görüşlərin yekunu olaraq əldə edilən razılaşmalar və imzalanan sənədlər təkcə iki ölkəyə deyil, ümumiyyətlə, bölgəyə və dünyanın digər ölkələrinə xeyir verəcək".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü **Vahid Əhmədov** da hesab edir ki, Prezident İlham Əliyevin Ankaraya səfəri haqlı olaraq ölkə mediasının və bütövlükdə cəmiyyətin əsas müzakirə mövzusuna çevrilib. Bu təbiidir: "Qürurverici bu səfər və ürəyimizi dağa döndərən bir möhtəşəm görüş idi. Cənab Prezidentin özünün də dediyi kimi, dünyada bir-biri ilə bu qədər qardaşcasına münasibətdə olan iki dövlət tapmaq olmaz. Doğrudan da, bir millətin iki dövləti olduğumuzu əyani şəkildə, əməlimizlə sübut etdik. Həmin səfəri diqqətlə izlədim və orada səsləndirilən "qara günün dostu" ifadəsi məni təsirləndirdi".

Deputat daha sonra dedi ki, xain terrorla üz-üzə qalan qardaş Türkiyənin çətin gününə tələsmək və dərdi birlikdə paylaşdığımızı bəyan etmək, alçaq hücumlarla Türkiyəni öz yolundan döndərə bilməyəcəklərini dünyaya bəyan etmək hamımızı təsirləndirib: "Bəli, biz millət olaraq qara günün dostu olduğumuzu millətimizin birinci şəxsi və onun peşəkar başçısının mərdanə davranışı ilə bir daha təkcə dostlarımıza deyil, rəqiblərimizə və düşmənlərimizə də göstərdik.

Prezident İlham Əliyevin məharətli diplomatik gedişləri Azərbaycanı dünyada xeyli populyarlaşdırıb və hətta əhalisi 100 milyon civarında olan dövlətlərin başçıları Prezident İlham Əliyevin bu cür cəsarətli diplomatik idarəetməsini qibtə və həsədlə izləyirlər. Heç kimə sirr deyil ki, Azərbaycanın kifayət qədər güclü və məkrli rəqibləri, düşmənləri var və belə bir həssas dönəmdə, dünyanın və yaşadığımız bölgənin gərgin geopolitik savaş poliqonuna çevrildiyi indiki vaxtda belə cəsarətli addım atmaq heç də hər dövlət başçısına nəsib olan keyfiyyət deyil. Bir sözlə, bu səfəri mən təkcə Azərbaycan xalqına deyil, bütün türk dünyasına bir mesaj və Novruz hədiyyəsi kimi qəbul etdim. Heç bir şübhəm yoxdur ki, dövlət başçımız bu cür məharətli diplomatiyası ilə tezliklə ermənilərə də mat qoyacaq və ölkəmizin ərazi bütövlüyü məhz onun prezidentliyi dönəmində təmin olunacaq".

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü **Çingiz Qənizadə** də dedi ki, Azərbaycan Prezidentinin Türkiyəyə bu səfəri təkcə iki qardaş ölkə deyil, dünya mediasının diqqət mərkəzinə çevrilib. Yayılan bütün məlumatlarda bildirilir ki, Ankarada törədilən terror aktı səbəbindən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın martın 15-də Azərbaycana nəzərdə tutulan səfəri son bir ayda ikinci dəfə təxirə salınıb. Lakin bunun qarşılığında Azərbaycan Prezidenti planlaşdırılan Strateji Əməkdaşlıq Şurasının V iclasının Bakı əvəzinə Ankarada keçirilməsi barədə təşəbbüslə çıxış edib və Türkiyəyə səfər etməyə qərar verib. Azərbaycan Prezidentinin bu addımı Türkiyə siyasətçilərini də çox qürurlandırıb: "Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədrinin müavini Ömər Çelik dövlət başçımızın bu addımına öz münasibətini bildirərək Azərbaycanın Türkiyəyə çətin günlərdə dəstəyini əsla unutmayacaqlarını bildirib. Bu barədə Ömər Çelik rəsmi "twitter" hesabında yazıb ki, Azərbaycan canımızdır və bizim qəlbimizdədir. Çox yaşa, Azərbaycan".

Deputatın fikrincə, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının, Prezident İlham Əliyevlə həmkarı Rəcəb Tayyib Ərdoğanın apardıqları danışıqların, imzalanan sənədlərin, bütövlükdə əldə olunan razılaşmaların təhlili çox maraqlı nəticələr çıxarmağa imkan verir: "Mən də hesab edirəm ki, Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın digər nümunə yoxdur. Ancaq bunun təməlində hansısa amillər deyil, konkret taktika və strategiyaya malik siyasət durur. Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğuna heç kəsin şübhəsi yoxdur. Bu iki dövlət bütün sahələr üzrə bir-birinə çox yaxındırlar. Ankarada keçirilən görüşlərdən sonrakı mətbuat konfransında iki ölkə Prezidentinin səmimi şəkildə bir-birini qucaqlaması isə Türkiyə və Azərbaycan birliyinin əbədiliyinə işarə olmaqla yanaşı, Prezident İlham Əliyevin bir siyasətçi kimi alicənablığının, bir insan kimi etibar və sədaqətinin göstəricisi idi".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*